Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı
Sayı/Number 3, 2015
www.azjess.com

# AZƏRBAYCAN RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATI İSTEHSALININ SIĞORTALANMASI SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Firdovsi Fikrətzadə
iqtisad üzrə fəlsəfə doktoru

**Xülasə**

Məqalədə kənd təsərrüfatı istehsalının sığortalanması sahəsində inkişaf etmiş və inkişaf etməkdə olan təcrübələri ayrı-ayrılıqda araşdırılmış, müxtəlif sığorta formaları və mexanizmləri təhlil edilmişdir. Dünya təcrübəsi nəzərə alınmaqla Azərbaycanda kənd təsərrüfatı istehsalının sığortalanması sahəsində mövcud vəziyyət təhlil edilərək, ölkədə bu sahənin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir. Məqalənin sonunda Azərbaycanda kənd təsərrüfatı istehsalının sığortalanması sisteminin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** risklər, sığorta, sığorta növləri, sığorta mexanizmi, dövlət yardımları.

## Giriş

Kənd təsərrüfatı istehsalı təbii-iqlim şərtlərindən əsaslı şəkildə asılı olduğundan və kənd təsərrüfatı məhsulları üzrə tələb və təklif qiymətə görə az elastik və ya qeyri - elastik olduğundan, bu sahə iqtisadiyyatın ən riskli sahələrindən biri hesab edilir. Belə ki, kənd təsərrüfatı istehsalının həcmi gözlənilməz hava şəraiti, təbii fəlakətlər, xəstəliklər, ziyanvericilər və digər bu kimi amillərdən ciddi asılıdır. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının qiymətlərində baş verən geniş miqyaslı tərəddüdlər fermer təsərrüfatlarının gəlirlərində yüksək fərqlər meydana gətirir və qeyri-müəyyənlik yaradır.

Bunlarla bərabər, institusional mühitin qeyri-stabilliyi, dövlət tənzimləməsi sistemindəki boşluqlar, qeyri-təkmil qanunvericilik, formalaşmayan torpaq bazarı, münaqişələr, qlobal böhranlar və digər faktorlar kənd təsərrüfatı məhsulları istehsalı sahəsində riskləri artıran səbəblər kimi çıxış edir.

Qeyd edilənlərə əsasən, kənd təsərrüfatı istehsalı ilə bağlı riskləri aşağıdakı cədvəldəki kimi qruplaşdırmaq olar (cədvəl 1).

*Cədvəl 1*

**Kənd təsərrüfatı istehsalı üzrə potensial risklər**

| Risklər | Təsirlər | |
|---|---|---|
| Təbii-iqlim | Dolu, don vurma, daşqın, külək, quraqlıq, yanğın, zəlzələlər, vulkan püskürmələri və s. | |
| Sanitar | Xəstəliklər və epidemiyalar | idarə edilə bilən |
| | | idarə edilə bilməyən |
| Bazar | Yerli və beynəlxalq qiymətlərdəki fərqlər, keyfiyyət standartlarındakı dəyişikliklər | |
| Siyasi, hüquqi, sosial, iqtisadi | Müharibələr, maliyyə böhranları, institusional mexanizmlərin zəifliyi və s. | idarə edilə bilən |
| | | idarə edilə bilməyən |

Kənd təsərrüfatı iqtisadiyyatın ən riskli sahələrindən olduğuna görə, bu sahə üzrə tətbiq edilən sığorta alətləri də çox istiqamətlidir.

### İnkişaf etmiş ölkələrin təcrübəsi

İnkişaf etmiş ölkələrin kənd təsərrüfatı istehsalının sığortalanması sahəsində təcrübələrinin öyrənilməsi iki məsələ baxımından mühüm əhəmiyyət kəsb edir: i) bu ölkələrdə bütövlükdə maliyyə-sığorta bazarları yüksək səviyyədə inkişaf etdiyindən, aqrar sığorta sahəsində də geniş əhatəli tədbirlərin həyata keçirilməsi üçün zəruri infrastruktur, o cümlədən institusional baza kifayət edəcək səviyyədədir; ii) bu ölkələrdə aqrar sahənin dövlət tərəfindən effektiv himayəsi siyasəti çərçivəsində aqrar sığortanın dövlət tərəfindən stimullaşdırılması təcrübəsi də böyükdür. Bu iki fakt, aqrar sahəyə dövlət yardımları mexanizminin tərkib hissəsi kimi aqrar sığortanın inkişaf etdirilməsi sahəsində uğurlu təcrübə nümunələri kimi, inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsini əhəmiyyətli edir.

### İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalı üzrə tətbiq edilən sığorta növləri

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalı sahəsində tətbiq olunan müxtəlif sığorta növlərini aşağıdakı kimi qruplaşdırmaq olar (6):

1. **Vahid riskli sığorta** (*Single-risk insurance*). Bu sığorta müqaviləsi adətən bir, bəzən hətta iki növ risk hadisəsini (daha çox dolu düşməsi riski, yaxud dolu düşməsi və yanğın riski) əhatə edir.
2. **Birləşdirilmiş risk sığortası** (*Combined peril insurance*). Bu sığorta müqaviləsi iki və daha çox risk hadisəsini əhatə edir.
3. **Məhsul sığortası** (*Yield insurance*). Təbii fəlakətlər nəticəsində məhsul istehsalının həcminə təsir edə biləcək əsas riskləri (məsələn, quraqlıq riskini) sığortalayır.

4. **Qiymət sığortası** (*Price insurance*). Bu sığorta müqaviləsi məhsul istehsalının bir hissəsini qiymətlərin müəyyən edilmiş səviyyədən aşağı düşməsi riskinə qarşı sığortalayır.
5. **Məhsul satışından daxil olmaların sığortası** (*Revenue insurance*). Bu sığorta müqaviləsi hər hansı məhsul növü üzrə istehsal həcminin və ya qiymətin aşağı düşməsi halında gəlirlərin itirilməsi riskini sığortalayır.
6. **Fermer təsərrüfatının bütövlükdə sığortalanması** (*Whole-farm insurance*). Hər hansı fermer təsərrüfatında istehsal olunan müxtəlif növ kənd təsərrüfatı məhsullarının bütövlükdə sığortalanmasını nəzərdə tutur.
7. **Gəlir sığortası** (*Income insurance*). Gəlir sığortası məhsul və qiymət risklərini, həmçinin istehsal xərclərini əhatə edir. Adətən gəlir sığortası təkcə bir məhsul növü üzrə deyil, bütün ferma üzrə ümumi gəliri sığortalayır. Gəlir sığortası digər sığorta növlərinə (məsələn, məhsul sığortası, qiymət sığortası) nisbətən fermerlər üçün potensial olaraq daha cəlbedicidir, çünki o, fermerlərin maddi rifahına birbaşa olaraq təsir edən itkiləri sığortalayır.
8. **İndeksə əsaslanan sığorta** (*Index Insurance*). İndeksə əsaslanan sığorta məhsulları alternativ sığorta növü olmaqla burada ödənişlərin verilməsi ferma məhsullarının həcmi əsasında deyil, hökumət agentlikləri və ya digər təşkilatlar tərəfindən hesablanan indekslər əsasında həyata keçirilir.

Son zamanlar, inkişaf etmiş ölkələrin sığorta bazarlarında baş verən maliyyə və texnoloji dəyişikliklər kənd təsərrüfatı risklərinin, xüsusilə iqlimlə bağlı risklərin sığortalanmasında yeni effektiv metodların tətbiqinə imkan vermişdir (5). Belə ki, kənd təsərrüfatı istehsalı ilə bağlı risklərin iştirakçı tərəflər arasında bölüşdürülməsi mexanizmi kimi sığorta bazarlarında “**fəlakət istiqrazları**”, “**əlverişsiz hava şəraitindən sığorta indeksi**” və “**ərazi-məhsul indeksinə əsaslanan müqavilələr**” formasında maliyyə-sığorta alətləri tətbiq edilir. Eyni zamanda, peyk sistemi vasitəsilə havanın proqnozlaşdırılması, kosmik təsvirlərin çəkilməsi, “**erkən xəbərdarlıq sistemi**” (**Early Warning System**) modelləri kimi texnoloji innovasiyalar aqrar sığorta sisteminin inkişafına maneə olan bir sıra amillərin aradan qaldırılmasına kömək etmişdir.

İnkişaf etmiş ölkələrdə tətbiq edilən kənd təsərrüfatı məhsullarının innovativ sığorta alətlərinin bəziləri haqqında daha ətraflı məlumat aşağıda verilmişdir:

**Hava indeksinə əsaslanan müqavilələr** (*weather-based index contracts*). Hava indeksinə əsaslanan müqavilə əvvəlcədən müəyyən edilmiş ərazidə, əvvəlcədən müəyyən edilmiş iqlim hadisələrinin (temperatur, yağış, külək, dolu və s.) baş verməsi halında meydana gələ biləcək itkilərin aradan qaldırılması məqsədilə kəndli-fermerlərə zəmanət ödənişlərinin verilməsini nəzərdə tutur. Yəni bu sığorta növü fyuçers müqaviləsi olmaqla (gələcək gözləntilərə əsaslanmaqla), bu halda tərəflər arasındakı sövdələşmə obyekti kimi hava indeksi çıxış edir. Məsələn, taxıl istehsalı ilə məşğul olan istehsalçı üçün quraqlıq hava şəraitinin olması səbəbindən məhsuldarlığın aşağı düşməsi, təbii olaraq, gəlirlərin bir hissəsinin və ya hamısının itirilməsi riskini yaradır. Ona görə də istehsalçının baş verə biləcək mənfi iqlim təsirlərindən özünü sığorta

etməsi üçün sövdələşmə obyekti kimi "yağış yağmasına əsaslanan hava indeksi" əsasında fyuçers müqavilələri bağlaya bilər (6; 8; 11).

Bu indeksin əhəmiyyəti ondan ibarətdir ki, kəndli-fermerlərin üzləşdiyi iqlim risklərinin kovariativ xarakterinə (kovariasiya - iki dəyişəndən birinin dəyişməsinin digər dəyişənin də dəyişməsinə səbəb olması) böyük diqqət yetirir. Leysan, quraqlıq, donvurma, güclü külək və s. təbii hadisələr kənd təsərrüfatında iqtisadi aktivliyin artıb-azalmasına birbaşa və sistematik təsir göstərir. Belə sistematik təsirlər daha çox aşağı imkanlı kəndlilərin gəlir və xərclərində əks olunur. Beləliklə, hava indeksinə əsaslanan müqavilələr nəinki aqrar sektor daxilində ev təsərrüfatları və iqtisadi agentlərin üzləşdiyi yüksək riskləri azaldır, həm də baş verə biləcək təbii fəlakətlərə görə ödənilən dövlət xərclərini ixtisar edir.

**Fəlakət istiqrazları** (*catastrophe bonds*). "Fəlakət istiqrazları" hətta inkişaf etməkdə olan ölkələrdə də istifadəsi hər kəs üçün əlçatan olan innovativ sığorta alətlərindən biridir. Fəlakət istiqrazları maliyyə bazarında satıla bilən aktiv olmaqla, bəzi təbii fəlakətlərin baş verməsi halında öz sahibini kapital payı ilə təmin edir. Fəlakət istiqrazlarına görə gəlirlər "fəlakət riski indeksi"nin dəyişməsindən asılı olaraq ödənilir. Bu indeks kənd təsərrüfatı itkilərinin dolayı ölçü vasitəsi kimi potensial olaraq istifadə edilə bilər. Kapital bazarlarında fəlakət istiqrazları buraxan maliyyəçilər cəlb etdikləri kapital hesabına təbii fəlakətlərin törətdiyi risklərlə qarşılaşan və bu riskləri başqaları ilə bölüşmək istəyən şəxslərə sığorta və təkrar sığorta xidmətləri göstərirlər. Fəlakət istiqrazları ABŞ, Yaponiya kimi dövlətlərdə uğurla tətbiq olunmuşdur (5;10).

**Ərazi-məhsul indeksinə əsaslanan müqavilələr** (*area yield-based index contracts*). Ərazi-məhsul indeksinə əsaslanan müqavilələr əvvəlcədən müəyyən edilmiş ərazidə torpağın orta məhsuldarlığı göstəricisi əsasında zəmanət ödənişlərinin verilməsini nəzərdə tutur. Əgər verilmiş kənd təsərrüfatı məhsulu üzrə məhsuldarlıq səviyyəsi əvvəlcədən müəyyən edilmiş ərazidə nəzərdə tutulmuş səviyyədən aşağı düşərsə, onda müqavilə sahibinə zəmanət ödənişləri verilir. Ərazi-məhsul indeksinə əsaslanan müqavilələr istehsalçı-fermerlər arasında rəqabəti təşviq edir və zərərli təsirlərin yumşaldılması vasitəsilə ümumi regionun orta məhsuldarlığına nisbətən hər bir istehsalçı-fermerin fərdi məhsuldarlığının artırılmasına şərait yaradır. Çünki ümumi regionun orta məhsuldarlığının nəzərdə tutulmuş səviyyədən aşağı düşdüyü və zəmanət ödənişlərinin verilməsinə səbəb olduğu halda regionun orta məhsuldarlığına nisbətən yüksək fərdi məhsuldarlığa malik olan hər bir istehsalçı-fermer ikiqat qazanc əldə edir. Yəni, regionun orta məhsuldarlığına nisbətən yüksək fərdi məhsuldarlığa malik olan istehsalçının həm yüksək məhsuldarlığa görə gəliri çox olur, həm də sığortaya görə zəmanət ödənişi əldə etmiş olur. Ərazi-məhsul indeksinə əsaslanan müqavilələrin həyata keçirilməsi hər bir region üzrə məhsuldarlıq göstəricisini əks etdirən dəqiq məlumatların olmasını tələb edir (4; 8).

**İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının sığortalanması mexanizmləri**

İstehsal edilən kənd təsərrüfatı məhsullarının müəyyən risklərdən icbari sığorta etdirilməsi, ödəniləcək sığorta haqqının müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin gəlir və xərclərinə və yaxud kənd təsərrüfatı məhsullarının sığortası ilə məşğul olan sığorta təşkilatlarının bu növ üzrə zərərlərinə dövlətin ortaq olması və digər tədbirlər, kənd təsərrüfatı istehsalçılarına dövlət tərəfindən verilən dəstəyin bir forması kimi çıxış edir.

Tarixən inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının özəl sığorta şirkətləri tərəfindən sığortalanması müqavilə ilə əvvəlcədən müəyyən olunmuş yalnız məhdud sayda riskləri (məsələn, yağış/dolu riskindən sığorta) nəzərə almaqla həyata keçirilir. Çünki kənd təsərrüfatı üzrə sığorta çox risklidir və yalnız belə məhdud sayda risklərə görə müvafiq sığorta ödənişlərini təyin etmək və dəymiş zərərin miqdarını müəyyənləşdirmək nisbətən asan olur. Məsələn, kənd təsərrüfatı məhsulları üzrə sığorta portfelinin riski, eyni dərəcədə qiymətləndirilən avtomobil yaxud sağlamlığın sığortası üzrə müqavilələrdən ibarət olan portfeldən 20 dəfə artıqdır. Buna görə də, özəl sığorta şirkətləri aqrar sahəyə çox az maraq göstərirlər.

Özəl sığorta şirkətlərinin kənd təsərrüfatı istehsalının sığortalanmasında maraqlı olmamaları dövlətin birbaşa və ya dolayı vasitələrlə bu sahəyə müdaxiləsini zəruri edir. ABŞ, İspaniya, Fransa və İtaliya kimi yüksək gəlirli ölkələrdə həyata keçirilən kənd təsərrüfatı məhsulları istehsalının dövlət tərəfindən sığortalanması mexanizmi hökumətin aşağıdakı tədbirləri həyata keçirməsini nəzərdə tutur (6):

- sığorta ödənişlərində fermerlərə güzəştlərin edilməsi;
- kənd təsərrüfatı məhsullarının sığorta müqaviləsindən irəli gələn risklərin qiymətləndirilməsi prosesi ilə əlaqədar yüksək inzibati xərclərin bir hissəsinin ödənilməsi məqsədilə özəl sığorta şirkətlərinə subsidiyaların verilməsi;
- subsidiyalaşdırılan təkrar (yenidən) sığorta.

Ümumilikdə isə, inkişaf etmiş ölkələrdə aqrar sahə üzrə risklərin aradan qaldırılmasının müxtəlif alətlərini özündə birləşdirən müvafiq institusional potensial və bazar infrastrukturu formalaşdırılmışdır.

**İnkişaf etməkdə olan ölkələrin təcrübəsi**

Aqrar sığorta sisteminin ümumi problemləri (bu sahənin iqtisadiyyatın ən riskli sahələrindən olması, özəl sektorun bu sahənin sığortalanmasına az maraq göstərməsi və s.) ilə bərabər, inkişaf etməkdə olan ölkələr üçün spesifik olan aşağıdakı problemlər də mövcuddur:

- *Maliyyə və sığorta sektorlarının zəif inkişaf etməsi*. İnkişaf etməkdə olan ölkələrdə, ümumilikdə, sığorta bazarının tam formalaşmaması, aqrar sahə üzrə sığorta fəaliyyətini ciddi məhdudlaşdırır;
- *Müvafiq dövlət resurslarının məhdud olması*. Özəl sektorun az maraq göstərdiyi aqrar sahənin sığortalanması, adətən, ciddi dövlət yardımları hesabına inkişaf

etdirilir. Lakin inkişaf etməkdə olan ölkələrin zəif büdcə təminatı bunu geniş miqyasda həyata keçirməyə imkan vermir.

- *Müvafiq tənzimləmə mexanizmlərinin qeyri-təkmil olması*. İnkişaf etməkdə olan ölkələrdə aqrar sahənin sığortalanmasına dövlət yardımları mexanizmləri yeni-yeni formalaşır və buna görə də zəifdir. Eyni zamanda, bu ölkələrdə maliyyə şəffaflığının kifayət qədər olmaması daha bir problemdir. Buna görə də, bu istiqamətdə sərf edilən məhdud dövlət yardımları kifayət qədər effekt vermir.
- *Fermerlərin sığortaya az maraq göstərməsi*. İnkişaf etməkdə olan ölkələrdə ümumi sığorta mədəniyyətinin aşağı olması, eləcə də bu sahə üzrə tənzimlənmə mexanizmlərinin qeyri-təkmil olması, bu istiqamətdə dövlət yardımları ilə bağlı məlumatlandırmanın aşağı səviyyədə olması və digər bu kimi səbəblərdən, aqrar istehsalçıların özlərinin də sığorta işinə meyilləri azdır.

Bunlarla belə, hazırda inkişaf etməkdə olan ölkələrdə də aqrar sahəyə edilən yardımların tərkib hissəsi kimi, aqrar sığorta sisteminin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlər görülür.

**Türkiyə təcrübəsi**

Türkiyə Respublikasında aqrar sahəyə dövlət yardımı mexanizminin tərkib hissəsi kimi aqrar sığortaya subsidiyaların ayrılması təcrübəsi yeni yaranmışdır. Belə ki, aqrar sığorta işinin stimullaşdırılması məqsədilə 2005-ci ildə Türkiyə Respublikasının "Kənd təsərrüfatı məhsullarının sığortası haqqında Qanunu" (*Tarım Siqortaları Kanunu*) qəbul edilmişdir. 2006-cı ildən etibarən isə bu ölkənin 90 bölgəsində pilot layihə kimi qeyd olunan qanunun tətbiqinə başlanılmışdır (9).

Ölkədə aqrar sığorta işinin keyfiyyətli aparılması, bağlanmış müqavilələr üzrə daxil olmuş sığorta haqlarının vahid bir mərkəzdə toplanılması, həmçinin baş vermiş sığorta hadisələrinə görə sığorta ödənişlərinin verilməsi istiqamətində şəffaflığın təmin olunması məqsədi ilə dövlət tərəfindən **Kənd Təsərrüfatı Məhsullarının Sığortası Fondu** (*Tarım Siqortaları Havuzu, TARSİM*) yaradılmışdır. Fondun idarə olunması dövlət dəstəyi ilə kənd təsərrüfatı məhsullarının sığortalanmasına razılıq almış sığorta təşkilatları tərəfindən qurulmuş və bərabər nisbətdə paya sahib olan ortaq bir İcraçı Şirkət tərəfindən həyata keçirilir (9).

Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsulları sığortasının əhatə dairəsi təminat verilən risklər göstərilməklə hər il Türkiyə Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. 2006-cı ildə dövlətin dəstəyi ilə aparılan kənd təsərrüfatı sığortası əsasən dörd qrupa bölünmüşdür:

i) bütün növ **bitki məhsullarının** *(meyvə, tərəvəz və tarla məhsulları)* sığortası;
ii) bütün növ **istixana məhsullarının** sığortası;
iii) **heyvanların** *(süd verən cins inəklərin)* **həyat sığortası**;
iv) bütün növ **ev quşlarının** sığortası.

Göstərilən qruplar üzrə verilən sığorta təminatı, **bütün növ bitki** *(ölkə ərazisində becərilən bütün növ kənd təsərrüfatı)* **məhsullarına** – dolu, yanğın, fırtına və don vurma, **bütün növ istilikxana məhsullarına** – dolu, yanğın, fırtına və uçqun,

**heyvanların həyat sığortasına** – bütün növ heyvan xəstəlikləri, doğum, cərrahi müdaxilə, ilan və zəhərli həşəratların sancması, bütün növ qəzalar, ot və ya digər yemlərdən zəhərlənmələr, yanğın və gün vurma nəticəsində meydana gələn ölüm yaxud məcburi kəsilmə, **ev quşlarının sığortası** isə – bütün növ quş xəstəlikləri, bütün növ qəza və zəhərlənmələr, məcburi kəsilmələr, bütün növ təbii fəlakətlər və yanğın risklərini əhatə edir.

Sözügedən qanunun tələblərinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşların könüllü şəkildə bağladıqları sığorta müqaviləsinə görə ödəyəcəkləri sığorta haqqı məbləğinin 50 faizi dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının təbii fəlakətlərdən sığortalanması zamanı bağlanılan sığorta müqavilələrinə tətbiq edilən tariflər bölgələr üzrə müxtəlifdir. Buna səbəb həmin bölgələrdə təbii fəlakətlərin baş vermə ehtimalının müxtəlif olmasıdır ki, bu da Türkiyə Respublikasının Ətraf mühit və Meşə Nazirliyi (*Çevre ve Orman Bakanlığı*) tərəfindən müəyyənləşdirilməklə rəsmən təsdiq olunmuşdur.

Məlumat üçün bildirək ki, 2006-2008-ci illər ərzində Türkiyədə sığorta ilə əhatə olunan kənd təsərrüfatı istehsalının ümumi həcmi 2 milyard YTL-yə yaxın olmuşdur ki, bu da həmin dövr ərzində bu ölkədə istehsal edilən ümumi kənd təsərrüfatı məhsulunun təqribən 1%-nə bərabərdir.

**Ukrayna təcrübəsi**

Ukraynada sığorta şirkətləri kənd təsərrüfatı müəssisələrinə fərqli növlərdə sığorta paketləri təqdim edir. Bununla belə, bu ölkədə bitkiçilik məhsullarına subsidiyalı sığorta ödənişləri ilk dəfə 2005-ci ildə tətbiq olunmağa başladı. Subsidiyanın həcmi sığorta ödənişinin 50 faizini təşkil edir (7).

Özəl sektor tərəfindən sığortalanan sığorta hadisələri kimi dolu, yanğın, oğurluq, fermerlərin və ya təsərrüfat işçilərinin ölümü və əmək qabiliyyətini itirməsi hallarını əhatə edir. Digər sığorta hadisələrinin əksəriyyəti dövlət tərəfindən ayrılan subsidiyalara əsaslanır. Çünki bu sığorta hadisələrinin bazar şərtləri ilə sığortalanması xərcləri çox yüksək ola bilər.

Buna baxmayaraq, müxtəlif növ canlı varlıqların məcburi sığortalanmasında başqa, mövcud sığorta imkanlarından çox az istifadə olunur. Kənd təsərrüfatı sığortasında iştirak etmək üçün 180 şirkət lisenziya alsa da, sadəcə 60 şirkət kənd təsərrüfatı sığortası fəaliyyəti ilə məşğul olur. Bundan əlavə, kənd təsərrüfatı müəssisələrinin 2,3 faizi sığorta müqaviləsi bağlayırlar. Buna uyğun olaraq, cəmi əkilən ərazilərin 3,4 faizi sığorta müqavilələri ilə əhatə olunmuşdur.

Ümumilikdə isə, beynəlxalq təşkilatların hesabatlarında qeyd edilir ki, Ukraynada aqrar sığorta sistemində mövcud olan hazırki vəziyyət kritik hesab oluna bilər. Çünki sığorta siyasəti üzrə mütəxəssislər, özəl sığortaçılar və sığorta ekspertləri bu sahədə kifayət qədər biliyə sahib deyillər. Aqrar sığorta sistemində lazımi məlumat bazasının, adekvat mütəxəssis biliyinin, şəffaflığın, tədqiqat işlərinin və koordinasiyanın çatışmazlığı hiss olunur.

*Cədvəl 2*

**Ukraynada aqrar sığorta sistemi**

| Sığorta məhsulunun adı | Əhatə etdiyi risklər | Subsidiya verilməsi | Riskin sığortalanan hissəsi | Sığorta ödənişi norması | Məhsullar / mal-qara |
|---|---|---|---|---|---|
| Seçilmiş risklər üzrə sığorta | Dolu, yanğın, tufan | Yox | 10-20% | 1-7% | Buğda, arpa, çovdar, günəbaxan, qarğıdalı, şəkər çuğunduru, soya, noxud |
| Regional məhsul indeksi | Hər cür iqlim təhlükəsi | Hə | 25-70% | 3,25-11% | Buğda, arpa, çovdar, günəbaxan, qarğıdalı, qarabaşaq |
| Tarla bitkiləri üçün geniş əhatəli sığorta məhsulu | Dövlət tərəfindən müəyyən edilmiş risklərin geniş siyahısı | Hə | 10-70% | 0,3-9,22% | Buğda, arpa, çovdar, günəbaxan, qarğıdalı, şəkər çuğunduru, soya bitkisi, noxud, qarabaşaq |
| Ümumi itki sığortası (məhsulun 50%-dən çoxunun məhv olması) | Qış fəslinə aid risklər (yazda donvurma riski də daxil olmaqla) | Hə | 10-50% | 3,2-12% | Bütün qış məhsulları |
| Qismən itki sığortası (məhsulun 50-70%-ni əhatə edir) | Qış fəslinə aid risklər | Hə | 10-50% | 3-10% | Bütün qış məhsulları |
| Üzüm, meyvə, giləmeyvələr üçün geniş əhatəli sığorta məhsulu | Dolu, yanğın, donvurma, tufan, güclü yağış, həmçinin qış fəslinə aid risklər | Yox | 10-40% | 2,5-4,5% qış üçün 4-8% yaz üçün 6-13% payız üçün | Üzüm, meyvə və giləmeyvələr |
| Tərəvəzlərin sığortası | Risklər fərdi olaraq müəyyən edilir | Yox | Təsbit edilməyib | 5-15% | Kommersiya məqsədi üçün yetişdirilən tərəvəzlər |
| İstilikxanaların sığortası | Risklər hər bir müqavilə üçün razılaşdırılır | Yox | Təsbit edilməyib | 5-10% | Tərəvəzlər |
| Mal-qaranın sığortası | Risklər fermer tərəfindən sərbəst seçilə bilər - hava, xəstəliklər, epidemiya, təbii fəlakət | Yox | 5-50% | 2,5-5% mal-qaranın tipindən asılı olaraq | İnək, donuz, qoyun, keçi, at, xəzli heyvanlar. Nadir hallarda balıq və arılar |

Beləliklə, Ukraynada aqrar sığorta sahəsində cari vəziyyət yüksək dərəcədə qeyri-stabildir ki, bu da sığorta şirkətləri və fermerlər üçün böyük risk yaradır və nəticədə aqrar sığorta bazarının inkişafı ləngiyir.

**Azərbaycan təcrübəsi**

Azərbaycanda kənd təsərrüfatı sığortasının hüquqi əsasları 18 iyun 2002-ci ildə qəbul edilmiş "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə formalaşdırılmışdır (1). Qeyd edək ki, bu qanunla Azərbaycanda aqrar sığorta hadisəsi kimi yalnız təbii fəlakətlər götürülür. Belə ki, sözügedən qanunun 5-ci maddəsində qeyd edilir ki, "Kənd təsərrüfatında bütün sığorta obyektləri bir qayda olaraq yanğın, dolu, sel, daşqın, tufan, şaxta və ildırım vurması, zəlzələ, torpaq sürüşməsi, dəmyə torpaqlarında quraqlıq kimi təbii fəlakətlərdən, habelə kənd təsərrüfatı bitkilərinin məhsulları, kənd təsərrüfatı heyvanları, ev quşları, dovşanlar, xəzdərili vəhşi heyvanlar, arı ailələri müvafiq olaraq xüsusi təhlükəli ziyanvericilərin yayılmasından və hücumundan, yoluxucu xəstəliklərdən, kənd təsərrüfatı təyinatlı binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri isə qəza hadisələrindən sığortalanır".

Qanunun 6-cı maddəsinə əsasən sığorta müqaviləsi üzrə sığorta məbləği kənd təsərrüfatı bitkiləri üzrə məhsulun dəyərinin azı 70 faizi, kənd təsərrüfatı heyvanları, ev quşları, dovşanlar, xəzdərili vəhşi heyvanlar, arı ailələri üzrə hüquqi şəxslərdə - onların balans dəyərinin, fiziki şəxslərdə isə bazar qiymətinin azı 80 faizi, kənd təsərrüfatı təyinatlı binalar, tikililər, qurğular, avadanlıqlar, maşınlar, nəqliyyat vasitələri və digər əmlak üzrə isə əmlakın bazar qiymətinin tam məbləği miqdarında müəyyən edilir.

Kənd təsərrüfatı istehsalının sığortalanmasının stimullaşdırılmasına dövlət yardımları verilməsinin ümumi prinsipləri qanunun 10-cu maddəsində əks olunmuşdur. Bu maddədə qeyd edilir ki, "Kənd təsərrüfatında əmlakın təbii fəlakətdən sığortalanmasının stimullaşdırılması müvafiq il üçün "Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında" Qanununda nəzərdə tutulmuş maliyyə yardımları həddində həyata keçirilir".

Aqrar sığortaya dövlət yardımının konkret mexanizmləri isə aşağıdakı normativ-hüquqi aktlarda əks olunmuşdur (2;3):

- "Kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına maliyyə yardımının ayrılması və ödənilməsi qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (4 mart 2004-cü il № 23);
- "Sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının və sığorta hadisələrinin növlərinin və sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (4 mart 2004-cü il № 22).

Hazırda qüvvədə olan normativ aktlara əsasən Azərbaycanda sığortalanmasına dövlət tərəfindən maliyyə yardımı göstərilən kənd təsərrüfatı məhsulları sırasına

buğda, arpa, qarğıdalı, günəbaxan - dən üçün, kartof, şəkər çuğunduru, tərəvəz (göyərti istisna olmaqla), meyvə, sitrus və üzüm bağlarının sahələri (məhsul) daxildir.

Dövlət tərəfindən maliyyə yardımı göstərilən sığorta hadisələri kimi isə yanğın, dolu, sel, daşqın və şaxta vurması müəyyən edilmişdir.

Mövcud qanunvericiliyə əsasən, müqavilə üzrə hesablanmış sığorta haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilən hissəsi sığorta haqqının 50%-i həcmində müəyyən edilmişdir. Kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına ayrılan maliyyə yardımı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzdində yaradılmış xüsusi hesabda toplanır və müəyyən olunan qaydalara uyğun gələn sığorta müqavilələri əsasında müvafiq sığortaçılara ödənilir.

Maliyyə Nazirliyinin məlumatlarına görə, Azərbaycanda kənd təsərrüfatı sığortasının stimullaşdırılması məqsədilə, onsuz da az həcmdə ayrılan vəsaitlərdən faktiki istifadə səviyyəsi də çox aşağıdır. Belə ki, dövlət büdcəsində 2006-cı ildə 172 min manat, 2007-ci ildə isə 400 min manat vəsaitin nəzərdə tutulmasına baxmayaraq, bu illər ərzində həmin vəsaitdən istifadə olunmamışdır. 2008-ci ildə isə bu məqsədlə dövlət büdcəsində nəzərdə tutulan 550 min manatlıq vəsaitin cəmi 7800 manatı, 2009-cu ildə nəzərdə tutulan 750 min manat vəsaitin 78 min manatı istifadə olunub. Beləliklə, aparılan təhlillər göstərir ki, ölkədə kənd təsərrüfatı istehsalı üzrə sığorta sisteminin inkişaf etdirilməsi üçün köklü şəkildə islahatların aparılmasına ehtiyac var.

## Təkliflər

Kənd təsərrüfatı istehsalının sığortalanması sahəsində dünya təcrübəsinin və Azərbaycanda mövcud olan vəziyyətin təhlilinə əsasən, ölkədə bu sahənin inkişaf etdirilməsi ilə bağlı aşağıdakı təklifləri irəli sürürük:

- dövlət tərəfindən maliyyə yardımı göstərilən sığorta hadisələrinin siyahısının təkmilləşdirilməsinə ehtiyac var. Bu baxımdan, dövlət dəstəyi ilə sığortalanan sığorta hadisələri siyahısına bütün təbii fəlakətlərin və həmçinin iqlim şərtlərinin əlverişsizliyi vəziyyətinin (quraqlıq, nəmişlik və s.) daxil edilməsi məqsədəuyğundur.
- sığortalanmasına dövlət tərəfindən maliyyə yardımı göstərilən kənd təsərrüfatı məhsullarının siyahısına heyvandarlıq təsərrüfatlarının əmlak və məhsullarının da əlavə edilməsi zəruridir;
- dünya təcrübəsinə uyğun olaraq, aqrar sığortanın genişləndirilməsi və aqrar sığortanın stimullaşdırılmasına dövlət dəstəyinin effektivliyinin artırılması məqsədilə Aqrar Sığorta Fondunun yaradılmasına ehtiyac var.
- aqrar sahəyə dövlət yardımı formalarından biri kimi aqrar sığortanın stimullaşdırılmasına dövlət dəstəyi, bu dəstəyin mexanizmləri, ümumiyyətlə, sığortanın əhəmiyyətliliyi ilə bağlı fermerlərin məlumatlılığının artırılması istiqamətində maarifləndirmə kompaniyalarının aparılmasına böyük ehtiyac var;
- istisna hal kimi, cəbhə bölgəsinə daxil olan sərhədyanı ərazilərdə kənd təsərrüfatı sığortasının stimullaşdırılması üçün, dövlət tərəfindən maliyyə yardımı göstərilən sığorta hadisələrinin siyahısına təbii-iqlim fəlakətləri ilə bərabər, münaqişədən irəli gələ biləcək bədbəxt hadisələrin də daxil edilməsi məqsədəuyğun olardı.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. “Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında” Azərbaycan Respublikası Qanunu (18 iyun 2002-ci il, № 344-İİQ)

2. “Sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının və sığorta hadisələrinin növlərinin və sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (4 mart 2004-cü il, № 22)

3. **“**Kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına maliyyə yardımının ayrılması və ödənilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (4 mart 2004-cü il № 23)

4. Barry J. Barnett, J. Roy Black, Yingyao Hu, and Jerry R. Skees, Is Area Yield Insurance Competitive with Farm Yield Insurance? Journal of Agricultural and Resource Economics 30(2):285-30 1, Western Agricultural Economics Association, 2005

5. Innovative agricultural insurance products and schemes, by Myang Goo KANG, FAO, Rome, 2007, ISBN 978-92-5-105742-1

6. Maria Bielza, Costanza Conte, Christoph Dittmann, Javier Gallego, Josef Stroblmair, Agricultural Insurance Schemes, EUROPEAN COMMISSION, Institute for the Protection and Security of the Citizen, Agriculture and Fisheries Unit, Final Report, December, 2006, Modified February 2008

7. Nataliya Gerasymenko, Crop Insurance in Ukraine: Challenges And Perspectives, Poster Paper presented at IAMO Forum 2008, http://www.iamo.de/uploads/media/1b.5_Gerasymenko_CD.pdf

8. Raushan Bokusheva, Gunnar Breustedt, The Effectiveness of Weather-Based Index Insurance and Area-Yield Crop Insurance: How Reliable are ex post Predictions for Yield Risk Reduction? Quarterly Journal of International Agriculture 51 (2012), No. 2: 135-156

9. Tarım sigortası nasıl yapılır, http://www.sigortalardan.com:80/genel-sigorta-haberleri/Tarim-sigortasi-nasil-yapilir.html

10. Vedenov, Dmitry V. Epperson, James E. Barnett, Barry J. Designing Catastrophe Bonds to Securitize Systemic Risks in Agriculture: The Case of Georgia Cotton, Journal of Agricultural and Resource Economics 3 1 (2):3 18-338, Western Agricultural Economics Association, 2006

11. Weather Index-based Insurance in Agricultural Development A Technical Guide, International Fund for Agricultural Development (IFAD), November, 2011

## IMPROVEMENT ISSUES OF AGRICULTURAL INSURANCE SYSTEM IN AZERBAIJAN

Firdovsi Fikratzade

Summary

The field of insurance practices of agricultural sector in developed and emerging countries is separately investigated, and a variety of forms and mechanisms of insurance were analyzed. Taking into account the world experience by analyzing the current situation in the field of agricultural insurance in the country areas of improvement were identified. In the end of the article recommendations related to the improvement of insurance system of agricultural production were presented.

**Key words:** risk, insurance, insurance mechanism, state aid

## ВОПРОСЫ УЛУЧШЕНИЯ СИСТЕМЫ СТРАХОВАНИЯ СЕЛЬСКО-ХОЗЯЙСТВЕННОГО ПРОИЗВОДСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Фирдовси Фикратзаде

Резюме

В статье отдельно исследована практика в области страхования сельскохозяйственное производство в развитых и развивающихся странах и проанализированы различные формы и механизмы страхования. Учитывая мировой опыт, текущая ситуация в области страхования сельскохозяйственной продукции в стране анализируется с учетом мирового опыта и определены направления совершенствования в этой области. В конце статьи были выдвинуты рекомендации связанные с улучшением системы страхования сельскохозяйственного производства.

**Ключевые словы:** риск, страхование, страхование механизм, государственная помощь